**Yeni texnologiyalarla (GPON və digər) telekommunikasıya xidmətlərinin göstərilməsi üçün "Telekommunikasiya operatoru" ilə "Abunəçi" arasında**

**M Ü Q A V İ L Ə**

**Bakı şəhəri** **"____" ________ 20___ ci il**

Bu Müqavilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin (İİN) telefon rabitə xidməti operatorluğu üzrə müddətsiz lisenziyaları əsasında fəaliyyət göstərən **"TransEvroKom" MMC-nin (bundan sonra "Telekommunikasiya operatoru" adlandırılacaq)** Baş direktoru Q.Q.İbrahimovun şəxsində və digər tərəfdən ______________________________________________________________________ **(bundan sonra "Abunəçi" adlandırılacaq)** arasında yeni texnologiyalarla (GPON və digər) telekommunikasiya xidmətlərinin göstərilməsi məqsədi ilə bağlanılır.

## 1. MÜQAVİLƏNİN MƏQSƏDİ

1.1. Bu Müqavilə "Telekommunikasiya operatoru" ilə "Abunəçi" arasında "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, "Abunəçi"yə Müqavilədə göstərilən qaydada seçdiyi telekommunikasiya xidmətlərinin göstərilməsi və "Abunəçi" tərəfindən bu xidmətlərin dəyərinin ödənilməsi ilə bağlı münasibətləri tənzimləyir.

## 2. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

2.1. **"Telekommunikasiya operatoru"nun hüquq və vəzifələri:**

2.1.1. Telekommunikasiya sahəsində qüvvədə olan qanunvericiliyə, digər normativ hüquqi aktlara və öz Nizamnaməsinə uyğun fəaliyyət və xidmət göstərmək;

2.1.2. "Abunəçini müəyyən edilmiş standart, norma və qaydalara uyğun olaraq keyfiyyətli və fasiləsiz telekommunikasiya xidmətləri ilə təmin etmək;

2.1.3. "Abunəçi"nin müraciətinə əsasən, xidmətdə yaranmış texniki problemlərin aradan qaldırılmasını təmin etmək;

2.1.4. "Abunəçi" tərəfindən ixtisaslaşdırılmış təcili yardım xidmətlərinin (yanğından mühafizə (101), polis (102), təcili tibbi yardım (103), qaz (104) və elektrik qəza xidməti (199, 186), fövqəladə hallar (112) və qanunvericilikdə nəzərdə tutulan digər bu kimi xidmətlərin (insan alveri ilə bağlı Daxili İşlər Nazirliyinin qaynar xətti-152, antikorrupsiya idarəsi-161) çağırılması üçün telekommunikasiya şəbəkələrindən ödənişsiz istifadəni təmin etmək;

2.1.5. "Abunəçi"nin müraciətinə əsasən telekommunikasiya xidmətlərinin (telefon (məftilli), internet və digər genişzolaqlı xidmətlər) qoşulmasını və dayandırılmasını mövcud qaydalara uyğun təmin etmək;

2.1.6. "Abunəçi"nin xidmət tarifləri, qanunvericiliklə müəyyən edilmiş digər zəruri məlumat və qaydalarla tanış olmasına şərait yaratmaq;

2.1.7. Telekommunikasiya xidmətlərinin tariflərində dəyişikliklər olduqda "Abunəçi"ləri kütləvi informasiya vasitələri və digər vasitələrlə məlumatlandırmaq;

2.1.8. Göstərdiyi xidmətlərin haqlarının yığımını təşkil etmək;

2.1.9. Müqavilə şərtlərinə əməl etməyən "Abunəçi"yə telekommunikasiya xidmətlərinin göstərilməsini bu Müqaviləyə uyğun olaraq dayandırmaq;

2.1.10. Qanunvericiliyə uyğun olaraq "Abunəçi"nin müraciətlərinə baxmaq, onun qəbulunu təşkil etmək və müraciətlərini cavablandırmaq;

2.1.11. "Abunəçi"ni göstərdiyi telekommunikasiya xidmətlərinin siyahısı ilə tanış etmək, o cümlədən, müqavilə bağlanan anda göstərilməyən, lakin sonradan həyata keçirilməsinə başlanılmış xidmətlər barədə məlumatlandırmaq;

2.1.12. Həyata keçirilən kampaniyalar, müştəriyönümlü tədbirlər və aksiyalar, abunəçinin borcları, yeni xidmətlər və s. barəsində bildirişlər, sms-lər, mobil və stasionar telefona zənglərin edilməsi, elektron məktubların göndərilməsi və s. bu kimi vasitələrlə abunəçilərə məlumat vermək. Bu məlumatları əldə etmək istəyən abunəçilər qeyd edilən məlumatları əldə etmək istədiyi əlaqə vasitələrini ayrıca göstərə bilərlər;

2.1.13. Abunəçinin müraciəti əsasında uşaqların zərərli informasiyadan qorunması, internet informasiya mənbələrindən təhlükəsiz istifadə imkanlarını təmin etmək məqsədi ilə abunəçi tərəfindən alınmış internet avadanlıqları və ya proqram təminatı vastəsi ilə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla internetdən istifadəni təmin etmək.

2.1.14. Qanunvericiliklə müəyyən edilmiş digər hüquq və vəzifələri həyata keçirmək.

2.2. **“Abunəçi” nin hüquq və vəzifələri:**

2.2.1. Xidmətin seçilməsinə dair müraciət formasını doldurmaqla, seçdiyi telekommunikasiya xidmətindən Müqavilə şərtlərinə uyğun istifadə etmək;

2.2.2. Seçdiyi xidmətlərin müqavilə şərtlərinə uyğun olaraq göstərilməsini telekommunikasiya operatorundan tələb etmək;

2.2.3. Xidmətlərin göstərilməsi zamanı yaranan çatışmazlıqlarla əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydada şikayət etmək;

2.2.4. Telekomunikasiya xidmətlərindən istifadə ilə bağlı qanunvericiliyin tələblərinə və Müqavilə şərtlərinə əməl etmək;

2.2.5. Telekommunikasiya şəbəkələrinin istismarını, bütövlüyünü, fasiləsizliyini, qarşılıqlı bağlantısını, informasiya mühafizəsini, radioelektron vasitələrinin elektromaqnit uyğunluğunu təhlükə altına qoyan, habelə digər subyektlər üçün telekommunikasiya xidmətlərinin göstərilməsini çətinləşdirən, yaxud qeyri-mümkün edən əməllərə yol verməmək, qeyri standart avadanlıqlardan istifadə etməmək və qanunvericiliklə müəyyən edilmiş standartlara, eləcə də digər tələblərə uyğun olmayan son avadanlıq qoşmamaq;

2.2.6. İstifadə etdiyi telekommunikasiya xidmətlərinin ödəniş haqlarını Müqavilə ilə müəyyən edilmiş qaydada və müddətdə ödəmək;

2.2.7. Telekommunikasiya xəttinə qoşulmuş son avadanlığın standartlara uyğunluğunun yoxlanılması məqsədilə “Telekommunikasiya operatoru”nun səlahiyyətli nümayəndəsinə son avadanlığa baxış keçirməsinə şərait yaratmaq;

2.2.8. Qazanc məqsədilə üçüncü şəxslərə telekommunikasiya xidmətləri göstərməmək və belə xidmətlərin göstərilməsinə şərait yaratmamaq;

2.2.9. Ünvanının və ya xidmət kateqoriyasının (əhali və ya qeyri-əhali) dəyişdirilməsindən 10 gün əvvəl “Telekommunikasiya operatoru”na bu barədə məlumat vermək;

2.2.10. Telekommunikasiya xidmətində nasazlıq yaranarsa, “Telekommunikasiya operatoru”na (Gəncə şəhərində 022 428 88 77, Bakı şəhərində 012 5991212 nömrələrinə) müraciət etmək;

2.2.11. “Telekommunikasiya operatoru” tərəfindən təmin olunan və onun mülkiyyətində qalan avadanlıqlardan düzgün istifadə edilməsini təmin etmək, abunəçinin təqsiri üzündən həmin avadanlıqlar yararsız hala salındığı təqdirdə, onların təmir xərclərini ödəmək təmir mümkünsüz olduğu halda, yenisinin alınmasını təmin etmək;

2.2.12. Qanunvericiliklə müəyyən edilmiş digər hüquq və vəzifələri həyata keçirmək.

2.3. **Tərəflərin məsuliyyəti:**

2.3.1. Tərəflər bir-birlərinə vurduqları ziyana görə məsuliyyət daşıyırlar. «İcraçı»dan asılı olmayan səbəblərə görə, o öz üzərinə düşən öhdəlikləri icra edə bilmirsə, buna görə məsuliyyət daşımır.

2.3.2. “Abunəçi” bu Müqaviləyə əsasən göstərilən xidmətə görə ödəməni gecikdirdiyi görə məsuliyyət daşıyır.

2.3.3. Sazlama, profilaktik, yoxlama və s. işlər aparılan zaman əgər trafikin ötürülməsinin dayandırılması 3 (üç) gündən artıq olarsa bu zaman «İcraçı» xidmətin dayandırıldığı günlər üçün «Abunəçi»yə kompensasiya ödəyir.

2.3.4. Bu müqavilənin digər şərtlərinin pozulması halında günahkar tərəf Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq qaydada məsuliyyət daşıyır.

2.3.5. “Abunəçi” nin şəxsi komputerində və avadanlığında baş vermiş problem və nasazlığa görə «İcraçı» məsuliyyət daşımır.

2.3.6. Müqavilədə göstərilən öhdəliklərin yerinə yetirilməməsi tərəflərin iradəsindən asılı olmayan fors-major halların səbəbindən baş verərsə, tərəflər öhdəliklərdən azad edilirlər. Fors-major hallar səlahiyyətli orqan tərəfindən təsdiq edilməlidir.

2.3.7. Tərəflər müqavilə üzrə öz öhdəliklərinin tam və lazımınca yerinə yetirilməməsinə görə qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

2.3.8. Bir tərəf digər tərəfin yazılı razılığı olmadan öz üzərinə düşən öhdəliklərin icrasını hər hansı üçüncü şəxslərə həvalə edə bilməz. Bu halda qarşı tərəf məsuliyyət daşımır.

2.3.9. Məlumatların tam gizliliyi şərtini pozan tərəf , həmin məlumatların açıqlanması nəticəsində qarşı tərəfə vurduğu zərərə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

2.3.10. Tərəflərin hər hansı biri müqavilənin hər hansı şərtini təqsirli olaraq pozduğu halda , digər tərəfə dəymiş zərərin əvəzini tam olaraq ödəyir.

2.3.11. Vurulmuş ziyanın ödənilməsi Tərəfləri öz vəzifələrini icra etmək öhdəliyindən azad etmir.

2.3.12. İnternet xidmətinin abunəçi tərəfindən qeyri-qanuni məqsədlərlə istifadə edilməsinə görə “İcraçı” məsuliyyət daşımır.

2.3.13. Telekommunikasiya şəbəkəsinə abunəçinin təqsiri səbəbindən dəymiş ziyanın dəyəri abunəçi tərəfindən qanunla müəyyən edilmiş qaydada ödənilir.

2.3.14. Abunəçinin xidmətdən istifadəsini qeyri-mümkün edən nasazlıq müraciət qeydə alındığı andan 48 saat ərzində bərpa edilmədikdə, abunəçidən bütün boşdayanma müddəti üçün abunə haqqı tutulmur və beş gündən çox müddətdə xidmət bərpa olunmadıqda operator və ya provayder qanuna uyğun olaraq məsuliyyət daşıyır.

2.3.15. Operator və ya provayder abunəçinin ödənişinin və hesablaşmaların səhv icra edilməsinə, həmçinin əsassız olaraq xidmət haqqı hesablanmasına və abunəçinin balansından silinməsinə görə abunəçinin qarşısında məsuliyyət daşıyır.

2.3.16. Abunəçinin razılığı olmadan və ya "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına zidd olan reklamın göndərilməsi üçün operator və ya provayder məsuliyyət daşıyır.

2.3.17. Abunəçi tərəfindən alınmış son avadanlıqlara operator və ya provayderin təqsiri səbəbindən dəymiş ziyanın aradan qaldırılması qanunvericiliyə uyğun olaraq operator və ya provayder tərəfindən həyata keçirilir.

2.3.18. Operator və ya provayderin Qanunda və müqavilədə nəzərdə tutulmuş öhdəlikləri lazımınca yerinə yetirməməsi nəticəsində abunəçiyə dəymiş zərərin və əldən çıxmış faydanın ödənilməsi ilə bağlı məsələlər məhkəmə qaydasında həll edilir

2.3.19. Operator və ya provayderin fəaliyyətinə qanuni tələblərin pozulması və ya digər səbəblərdən xitam verilərsə, abunəçiyə göstərilməmiş xidmətlərin dəyərini ödəməyə borcludur.

2.3.20. Operator və ya provayder aşağıdakı hallarda məsuliyyət daşımır:

2.3.21. Operator və ya provayder abunəçi tərəfindən səhv göstərilmiş məlumatlara görə səhv balans əməliyyatına görə məsuliyyət daşımır.

a. Abunəçinin təqdim etdiyi son avadanlığın operatorun və ya provayderin şəbəkəsi ilə uyğun gəlməməsi və ya son avadanlığın istehsalçının təlimatlarının tələblərinə uyğun istifadə edilməməsi;
b. Telekommunikasiya şəbəkələrinin istismarına icazəsiz müdaxilə nəticəsində abonent naqillərinin və ya xətlərinin zədələnməsi, telekommunikasiya avadanlığının oğurlanması və ya xətt və stansiya tikililərinin zədələnməsi;
c. Fors-major hallar (zəlzələ, sel, qasırğa və s.);
d. Qanunla müəyyən edilmiş digər hallarda abunəçinin təqsiri sübut olunduqda;

## 3. XİDMƏT HAQQI ÖDƏNİŞ ŞƏRTLƏRİ

3.1. "Abunəçi" xidmətlərdən müvafiq ödənişlər etməklə istifadə edir.

3.2. Xidmət haqqı Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının təsdiq etdiyi tənzimlənən tariflərə və "Telekommunikasiya operatoru"nun sərbəst müəyyən etdiyi və rəsmi internet səhifəsində və xidmət mərkəzlərində yerləşdirdiyi tariflərə uyğun olaraq, əvvəlcədən nəğd və ya nəğdsiz qaydada ödənilir.

3.3. Əhali kateqoriyası üzrə "Abunəçi" telefon xidmətindən istifadəyə görə cari ay üçün aylıq abunə haqqını həmin ayın 5-dək, cari ay ərzində istifadə edilmiş mobil, şəhərlərarası və beynəlxalq telefon xidmətlərin haqqını isə növbəti ayın 5- dək ödəyir.

3.4. Əgər abunə və istifadə edilmiş xidmətlərin haqqı qeyd olunan müddətdə ödənilməzsə, xidmətin göstərilməsi birtərəfli qaydada dayandırılır. Abunə və xidmətlərin haqqı növbəti ayın sonunadək ödənilərsə, xidmət bərpa edilir, əks halda xidmətdən istifadə tam dayandırılır və abunə və xidmət haqqı hesablanmır,sonrakı ayın sonunadək abunə və xidmətlərin haqqı ödənilməzsə "Telekommunikasiya operatoru" tərəfindən müqaviləyə xitam verilir.

3.5. Qeyri-əhali kateqoriyası üzrə "Abunəçi" qaimə-faktura əsasında telefon xidmətlərindən istifadəyə görə aylıq abunə haqqını cari ayın 15-dək, cari ay ərzində istifadə edilmiş mobil, şəhərlərarası və beynəlxalq telefon xidmətlərin haqqını isə növbəti ayın 15-dək ödəyir.

3.6. Əgər abunə və xidmət haqqı bu müddətdə ödənilməzsə, xidmətdən istifadə birtərəfli qaydada dayandırılır. Abunə və xidmət haqqı növbəti ayın sonunadək ödənilərsə, xidmət bərpa edilir, əks halda xidmətdən istifadə tam dayandırılır və abunə və xidmət haqqı hesablanmır. Sonrakı ayın sonunadək abunə və xidmətlərin haqqı ödənilməzsə "Telekommunikasiya operatoru" tərəfindən müqaviləyə xitam verilir.

3.7. Borca görə müqaviləsi ləğv edilmiş "Abunəçi" texniki imkan olduqda yenidən müqavilə bağlanılmaqla telekommunikasiya xidmətlərindən istifadə edə bilər. Bu zaman "Abunəçi" qoşulma haqqı ilə yanaşı əvvəllər yaranmış borclarını (hesablanmış cərimə daxil olmaqla) da "Telekommunikasiya operatoru"na ödəməlidir. Əgər əvvəl "Abunəçi"nin istifadəsində olmuş nömrə boşdursa, bu nömrənin ona ayrılmasına üstünlük hüququndan istifadə edə bilər.

3.8. "Abunəçi" istifadə etdiyi xidmətlərdən hər hansı birinə görə yaranmış borcunu edilmiş xəbərdarlıqlara baxmayaraq 2 (iki) ay ərzində ödəmədikdə, "Telekommunikasiya operatoru" ona göstərilən və bu Müqavilə ilə müəyyən edilmiş digər xidmətləri də dayandıra bilər.

3.9. "Abunəçi" iki və daha çox hesablama dövrü üçün xidmət haqqını əvvəlcədən ödəyə bilər. Bu Müqavilənin

3.13-ci bəndində göstərilən qaydada tariflər dəyişdikdə, “Abunəçi”nin istifadə edilməmiş ödədiyi məbləğ yeni tariflərə uyğun qaydada ödənişə hesablanır.

3.10. Ay ərzində şəbəkəyə yeni qoşulan əhali və qeyri-əhali kateqoriyası üzrə “Abunəçi” həmin ay üzrə telefon abunə haqqını tam ödəyir. Xidmətlərə qoşulma təmin edildikdən sonra, abunəçinin müraciəti əsasında müqaviləyə xitam verilərsə, qoşulma haqqı və cari dövrə görə ödənilmiş abunə haqqı geri qaytarılmır.

3.11. “Abunəçi”nin telekommunikasiya şəbəkəsinin son nöqtəsindən 100 metrədək məsafədə xidmətlərə (Ayrılmış internet kanalı üzərindən xidmət, birbaşa rabitə xətti və birləşdirici xətt istisna olmaqla) qoşulması və zəruri təmir işləri “Telekommunikasiya operatoru”nun hesabına həyata keçirilir. Göstəriləndən artıq məsafədə xidmətlərə qoşulma və təmir işləri üçün zəruri xərclər “Telekommunikasiya operatoru” tərəfindən hazırlanmış smetaya uyğun, “Abunəçi” tərəfindən ödənilir. “Abunəçi”nin vəsaiti hesabına tikilən paylayıcı şəbəkə və xətt qurğuları “Telekommunikasiya operatoru”nun mülkiyyətində qalır.

3.12. Ölkədaxili, mobil və beynəlxalq danışıqlar üzrə ödənişin məbləği faktiki danışıq müddətinə uyğun olaraq hesablanır.

3.13. “Telekommunikasiya operatoru” tətbiq etdiyi tariflərə dəyişikliklər etdikdə, bu barədə ən azı 10 (on) gün əvvəl rəsmi internet səhifəsində dəyişikliklə bağlı məlumat yerləşdirməklə “Abunəçi”ni məlumatlandırır. “Abunəçi” yeni tariflərlə xidmətlərdən istifadə etmək istəmədikdə yazılı (o cümlədən e-poçt vasitəsilə) qaydada müraciət etməklə, bu Müqaviləyə xitam verə bilər. Belə yazılı müraciətin olmaması yeni tariflərlə razılaşma kimi qəbul edilir.

3.14. Müqaviləyə vaxtından əvvəl və bu Müqavilənin 3.3 və 3.4-cü bəndlərində göstərilən hallara görə xitam verilməsi “Abunəçi”ni abunə və xidmət haqqını və gecikməyə görə cəriməni ödəmək məsuliyyətindən azad etmir.

3.15. Telekommunikasiya şəbəkəsinə qoşulmuş “Abunəçi”nin mülkiyyətində olan son avadanlıqlarda nasazlıqların aradan qaldırılması və ya avadanlıqların dəyişdirilməsi üzrə xərclər “Abunəçi” tərəfindən ödənilir.

3.16. Bu Müqaviləyə Əlavədə nəzərdə tutulmayan yeni xidmətlər “Telekommunikasiya operatoru” tərəfindən əlavə ödəniş əsasında göstərilir.

3.17. Əhali kateqoriyası üzrə “Abunəçi”yə internet müvafiq telefon üzərindən verildikdə, qoşulmanın edildiyi telefonun aylıq abunə haqqı və digər xidmətlər üzrə yaranmış borcuna görə tam dayandırıldığı müddətdə əvvəlcədən ödədiyi, lakin istifadə etmədiyi internet xidmətlərinin haqqı ona geri qaytarılmır.

3.18. İnternet xidməti telefon nömrəsi üzərindən verildikdə və nömrənin istifadəçisi ilə internet xidmətinin istifadəçisi eyni şəxslər olmadıqda, telefon nömrəsinin abunəçisinin yazılı tələbi ilə internet xidmətinin verilməsi internet xidməti abunəçisinə xəbərdarlıq edilməklə dayandırılır.

3.19. “Abunəçi”nin müraciətinə əsasən onun ölkədaxili və beynəlxalq danışıq xidmətlərinə çıxışı bağlanıla bilər. “Abunəçi” ölkədaxili və beynəlxalq danışıq xidmətlərini yenidən aktivləşdirməsi üçün “Telekommunikasiya operatoru”na müraciət edə bilər. “Abunəçi”nin müraciətində göstərildiyi müddətdə abunə haqqı ödənilməklə telefon şəbəkədən ayrıla bilər.

## 4. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİN HƏLLİ

4.1. Bu müqavilə hər iki tərəfdən imzalandığı tarixindən qüvvəyə minir və 3 (üç) il müddətinə qüvvədədir.

4.2. Tərəflər Müqavilənin müddətinin bitməsinə 10 gün qalmış bilavasitə və ya yazılı (o cümlədən email) müraciət etmədikdə Müqavilə avtomatik olaraq növbəti 3 il müddətinə uzadılır.

4.3. Tərəflər 20 (iyirmi) gün əvvəlcədən “Telekommunikasiya haqqında qanunun 40.2 maddəsini nəzərə almaqla bir-birini yazılı xəbərdar etməklə Müqaviləyə vaxtından əvvəl xitam verə bilər.

4.4. “Abunəçi” Müqavilənin şərtlərini, qanunvericiliyin tələblərini pozduqda “Telekommunikasiya operatoru” tərəfindən Müqavilə müvafiq qaydada xəbərdarlıq edilməklə ləğv edilə bilər.

4.5. Tərəflər arasında yaranmış mübahisələr qarşılıqlı razılaşdırma yolu ilə, tərəflər razılığa gəlmədikdə isə qanunvericiliyə uyğun olaraq məhkəmə qaydasında həll olunur.

## 5. XÜSUSİ ŞƏRTLƏR

5.1. “Abunəçi”nin istifadə etdiyi telekommunikasiya xidmətləri üzrə quraşdırma işləri Müqavilə hər iki tərəfdən imzalandıqdan və “Abunəçi” tərəfindən quraşdırma haqları və ödəniş tam ödənildikdən sonra “Operator” tərəfindən 3 iş günü ərzində şəbəkəyə qoşulur.

## 6. YEKUN MÜDDƏALAR

6.1. Yeni texnologiyalarla (GPON və digər) təşkil edilmiş telekommunikasiya xidmətlərindən istifadə edən abunəçi qəbul edir ki, "Telekommunikasiya operatoru"-dan aslı olmayan səbəblərdən xidmətin təchiz edildiyi avadanlığın yerləşdiyi yerlərin su ilə dolması, yanğının baş verməsi və digər xarici təsirlərə məruz qalması, elektrik təchizatında kəsilmənin və ya qüsurların olması və digər bənzər halların baş verməsi nəticəsində xidmət göstərilməsinin dayanmasına və ya xidmətin səviyyəsinin aşağı düşməsinə görə "Telekommunikasiya operatoru" məsuliyyət daşımır və belə halların mövcudluğu keyfiyyətsiz və ya qüsurlu xidmət kimi qiymətləndirilmir.

6.2. "Abunəçi" iki və daha çox ay üçün xidmət haqqını əvvəlcədən ödəyə bilər. 3.12-ci bənddə göstərilən qaydada tariflər dəyişdikdə, abunəçinin istifadə edilməmiş ödədiyi məbləğ yeni tariflərə uyğun qaydada ödənişə hesablanacaqdır. Müqaviləyə 3.12-ci bənddə göstərilən əsasla xitam verildikdə, xitam verilmə gününədək istifadə edilməmiş məbləğ "Abunəçi"yə qaytarıla bilər.

6.3. "Abunəçi" tərəfindən seçilmiş xidmətin göstərilməsi şəraiti və şərtləri tələb etdikdə həmin xidmətin göstərilməsi ilə bağlı ayrıca müqavilə bağlana bilər.

6.4. Bu Müqavilə 2 əsl nüsxədə imzalanmışdır, 1 nüsxə "Telekommunikasiya operatoru"nda, digər nüsxə isə "Abunəçi"də saxlanılır. Tərəflər Müqavilənin müddəaları ilə tanış olduqlarının, onun şərtərini qəbul etdiklərinin ifadəsi kimi Müqaviləni imzalayırlar.

6.5. Abunəçi barəsində məlumatların sorğu məlumat mənbələrində göstərilməsinə etiraz . ☐ etmir ☐ edir.

## 7. TƏRƏFLƏRİN REKVİZİTLƏRİ

**"Rabitə müəssisəsi"**

**"TransEvroKom" MMC**
Ünvan: Bakı ş-i,
Z.Xəlilov küç 40
Tel: (994 12) 5990000
Fax: (994 12) 4996979
E-mail: tec@transeurocom.az

Bank rekvizitləri:
ABB-nin Nəsimi filialı
Kod: 805614
M/h:AZ03NABZ01350100000000002944
Bank VÖEN: 9900001881
S.W.İ.F.T.Bik: İBAZAZ2X
H/h:AZ88IBAZ40060019449699925207
VÖEN: 1700170891

**Abunəçilərlə Hesablaşma şöbəsinin Rəisi**

______________ **Ş. Həsənov**

**Abunəçi**

**Abonentin adı, atasının adı və soyadı**
__________________________
Vətəndaşlığı________________
Doğulduğu yer_______________
Doğulduğu tarix______________
Azərbaycan vətəndaşının şəxsiyyət vəsiqəsi:
AZE ______________________
(FİN) nömrəsi________________
Respublikanın şəhəri______________________
Qeydiyyatda olduğu və yaşadığı ünvan:
__________________________
Çəkiliş ünvanı:
__________________________
Əlaqə tel:
stabil______________________
mobil:______________________

**Abunəçinin imzası:** __________

**Hüquqi şəxslər üçün**

**H/şəxsin adı**
__________________________
Hüquqi ünvanı_______________
Faktiki ünvanı_______________
VÖEN______________________
Bankın adı__________________
M/H_______________________
Kod:_______________________
VÖEN______________________
SWİFT_____________________
H/H_______________________
Əlaqə sabit telefonu
__________________________
Mobil nömrəsi_______________
Müqaviləni imza edən şəxs

__________________________
(adı, soyadı, atasının adı)

**H/Ş imzası (Möhür)**__________

**Yeni texnologiyalarla (GPON və digər) təşkil edilmiş telekommunikasiya xidmətlərinin göstərilməsi üçün "Telekommunikasiya Operatoru" ilə "Abunəçi" arasında __________________ tarixli müqaviləyə**

## ƏLAVƏ №1

## 1. Ümumi müddəalar

1.1 Bu Əlavə GPON texnologiyası ilə, "Telekommunikasiya Operatoru"-nun elan etdiyi kompaniya şərtləri ilə optik xətlə İnternet və telefon xidmətlərinə qoşulan "Abunəçi"-lərlə "Telekommunikasiya Operatoru" arasında yaranan xüsusi münasibətləri tənzimləyir və yalnız Müqavilə ilə birlikdə qüvvədədir.

## 2. Xidmətin şərtləri

2.1. Telekommunikasiya operatorunun optik İnternet və telefon şəbəkəsinə yeni qoşulan, ən azı 12 ay ardıcıl telefoniya və internet xidmətlərindən istifadə edən abunəçi xidmətlərdən istifadə və ödəniş öhdəliyini qəbul etdikdə, qoşulma haqqı və avadanlığın dəyərini ödəməkdən azad edilir, yalnız seçdiyi tarifə uyğun olaraq aylıq abunə haqqını ödəyir.

2.2. Telekommunikasiya operatoru ilə müqavilə bağlamaqla telefon və ADSL texnologiyası ilə xidmətlərə qoşulmuş mövcud abunəçi, GPON texnologiyası ilə xidmətlərə qoşulmaq istədikdə, ən azı telefoniya və internet xidmətlərindən istifadə etməklə, xidmətlərdən ən azı 12 ay ardıcıl istifadə və ödəniş öhdəliyini qəbul etdikdə avadanlığın dəyərini ödəməkdən azad edilir, yalnız seçdiyi tarifə uyğun olaraq aylıq abunə haqqını ödəyir.

2.3. Telekommunikasiya operatorunun optik İnternet və telefon şəbəkəsinə yeni qoşulan, ən azı telefoniya və GPON texnologiyası ilə internet xidmətlərindən istifadə edəcək abunəçi, telefon xidmətinə qoşulma haqqı (30 manat) və GPON ONT avadanlığın dəyərinin 50 (əlli) manat hissəsini ödəyir və seçdiyi tarifə/internet kanal sürətinə uyğun olaraq abunə haqqını ödəyir.

2.4. Telekommunikasiya operatoru ilə müqavilə bağlamaqla telefon və ADSL texnologiyası ilə xidmətlərə qoşulmuş mövcud abunəçi GPON texnologiyası ilə xidmətlərə qoşulmaq istədikdə, telefoniya və internet xidmətlərindən 12 ay istifadə etməklə, GPON ONT avadanlığın dəyərini ödəməkdən azad edilir və seçdiyi tarifə uyğun olaraq abunə haqqını ödəyir.

2.5. Xidmətlərə GPON texnologiyası ilə qoşulan yeni abunəçi yalnız telefoniya xidmətini seçdikdə, qoşulma haqqından (30 manat) əlavə, GPON ONT avadanlığının dəyərini 50 manat məbləğini ödəyir.

2.6. Xidmətlərdən istifadə edən mövcud abunəçi GPON texnologiyasına keçdikdə yalnız telefon xidmətlərindən istifadəni seçdikdə, GPON ONT avadanlığın dəyərini (50 manat) ödəyir.

2.7. Xidmətlərə GPON texnologiyası ilə qoşulan yeni abunəçi yalnız internet xidmətini seçdikdə, GPON ONT avadanlığının dəyəri olan 50 manat məbləği ödəyir.

2.8. ADSL texnologiyası ilə internet xidmətlərdən istifadə edən mövcud abunəçi GPON texnologiyasına keçdikdə və yalnız internet xidmətlərindən istifadəni seçdikdə, GPON ONT avadnlığının dəyərini (50 manat) ödəyir.

## 3. Abunəçinin öhdəlikləri

3.1. Yeni abunəçi kimi GPON texnologiyası ilə xidmətlərə qoşulmuş abunəçi xidmətlərdən ardıcıl 12 ay istifadə öhdəliyini pozduqda və müqaviləyə onun təqsirindən xitam verildikdə, telefon qoşulma haqqı (30 manat) və GPON ONT avadanlığın dəyərini (50 manat) "Telekommunikasiya operatoru"- na əlavə olaraq ödəyir.

3.2. GPON texnologiyasına keçirilmiş mövcud abunəçi 12 ay xidmətlərdən istifadəetmə öhdəliyini pozduqda və müqaviləyə onun təqsirindən xitam verildikdə, GPON ONT avadanlığının dəyərini (50 manat) telekommunikasiya operatoruna ödəyir.

3.3. GPON texnologiyası ilə xidmətlərə qoşulan abunəçi sonradan internet xidmətlərindən istifadə və ödənişdən imtina etdikdə, avadanlığın dəyərini (50 manat) "Telekommunikasiya operatoru" -na geri ödəyir.

3.4 Abunəçi tərəfindən kommersiya məqsədilə rabitə xidmətlərinin göstərilməşi, lisenziya almadan qanuqsuz olaraq şəhərlərarası və beynəlxalq telefon trafikinin daşınmasının təşkili, o cümlədən, mobil operatorlarının şəbəkəsindən istifadə olunmaqla "simbox" nömrələr vasitəsilə ümumistifadəli telekommunikasiya şəbəkəsinə beynəlxalq trafik ötürülməməlidir.

3.5 Abunəçi Telekommunikasiya operatorunun optik İnternet və telefon şəbəkəsinə giriş üçün öz parametrlərinin təhlükəsizliyinə və onun giriş kanalından icazəsiz istifadə nəticəsində dəymiş zərərə görə tam məsuliyyət daşıyır.

3.6 Təqdim edilmiş GPON ONT avadanlığı Abunəçinin mülkiyyətinə verilir və avadanlığın sazlığına görə Abunəçi məsuliyyət daşıyır. Avadanlığa Abunəçinin qəsdən və ya ehtiyatsızlığından edilmiş hərəkəti (və ya hərəkətsizliyi) nəticəsində zərər dəyərsə, yeni avadanlığın əldə olunması üçün tam məbləğ ödənilməlidir

3.7 Abunəçi 2 (iki) avadanlıq əldə etmək istədiyi təqdirdə Telekommunikasiya operatoru tərəfindən müəyyən edilmiş tarifə uyğun ödənişi həyata keçirməlidir.

3.8 Telekommunikasiya operatoru təqdim edilmiş avadanlığa istehsalçının təqdim etdiyi uyğun müddətdə 1 ay müddətinə zəmanət verir.

3.9 Zəmanət müddətində avadanlıqda nasazlıq aşkar edildikdə, Abunəçi müdaxilə etmədən Telekommunikasiya operatoru ilə əlaqə saxlamalıdır. Texniki dəstək nümayəndəsi yerində çətinliyi müəyyən edə bilmədiyi təqdirdə təhvil-təslim aktı imzalanaraq avadanlıq yoxlanışa aparılır, müştəriyə isə müvəqqəti olaraq əvəzedici avadanlıq təqdim edilir. Nasaz avadanlığın təmiri mümkün olmadıqda, Abunəçi yeni avadanlıqla təmin edilir. Həmin müddət ərzində əvəzedici avadanlığın təhlükəsizliyinə görə Abunəçi məsuliyyəti daşıyır.

3.10 Abunəçinin istəyi ilə istənilən növ tarif/sürət paketinə qoşulan abunəçidə sürətdəyişmə olunduqda, istifadə etdiyi mövcud tarif/sürət paketi üzrə şərtlər ləğv olunur.

3.11 Abunəçidə aktiv olan paket yalnız onun (və ya səlahiyyətli nümayəndəlinin) yazılı müraciətinə əsasən digər paketə dəyişdirilə bilər.

## 4. Ödəniş şərtləri

4.1 Abunəçinin aylıq ödənişinin məbləği seçdiyi tarifə və ya paketə uyğun təyin edilir və ödəniş Müqavilədə göstərilən qaydada və müddətlərdə həyata keçirilməlidir.

4.2 Paketə qoşulma tarixindən asılı olmayaraq nömrədə şəhərlərarası, beynəlxalq və mobil nömrələrə zənglərə görə borc olduqda, paketə aid bütün xidmətlər dayandırıla bilər, lakin paketin dövrü dayandırılmır.

| **Telekommunikasiya xidmətlərinin növləri və qoşulma şərtləri** | | **Abunəçinin Statusu** | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | **Yeni qoşulan abunəçi** | | | **Mövcud Abunəçi** | | |
| | | Qoşulma haqqı AZN | Avadanlıq dəyəri AZN | Aylıq abunə (aylıq ödəniş) AZN | Qoşulma haqqı AZN | Avadanlıq dəyəri AZN | Aylıq abunə haqqı AZN |
| Telefon + 80 Mb/san İnternet | 12 aylıq istifadə və ödəniş şərti | 0 | 0* | 21.50 | 0 | 0 | 21.50 |
| Telefon + 80 Mb/san İnternet | Standart | 30.00 | 50.00 | 21.50 | 0 | 0 | 21.50 |
| Yalnız telefon xidməti | Standart | 30.00 | 50.00 | 3.50 | 0 | 50.00 | 3.50 |
| Yalnız 80 Mb/s İnternet xidməti | Standart | 0 | 50.00 | 18.00 | 0 | 50.00 | 18.00 |
| *Abunəçi xidmətlərdən istifadə və ödənişi 12 ay müddətdən tez dayandırdıqda avadanlığın dəyərini 50 AZN telekommunikasiya operatoruna geri ödəyir. | | | | | | | |

## 5. Tərəflərin rekvizitlər

**"Telekommunikasiya operatoru"**
**"TransEvroKom" MMC**
**Abunəçilərlə Hesablaşma şöbəsinin Rəisi**

_______________ **Ş. Həsənov**

**"Abunəçi"**_______________________________

_______________________________
(adı, soyadı, atasının adı və imzası)